**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi mühüm hadisə kimi tarixə düşəcək. Dövlətimizin sözügedən tədbirə ev sahibliyi etməsi istər siyasi, istərsə də iqtisadi baxımdan Azərbaycan üçün bir çox dividendlər vəd edir. Bu gün ölkəmizdə də müşahidə olunan qlobal problemlərin - ətraf mühitin çirklənməsi, səhralaşma prosesinin, şoranlaşmanın sürətlənməsi, eyni zamanda meşələrin tükənməsinin qarşısı tezliklə alınmalıdır. COP29-a dünyanın 5 qitəsindən 80 minə yaxın insanın qatılacağını nəzərə alsaq, bu konfransın dünyanı narahat edən problemlərin həlli istiqamətində əvəzsiz rol oynayacağını söyləmək olar.**

# "Yaşıl iqtisadiyyat"da yeni strateji imkanlar

COP29-un ölkəmizdə keçirilməsi barədə qərarın qəbulu Azərbaycanın siyasi və iqtisadi nüfuzunun göstəricisi olmaqla yanaşı, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olduğundan da xəbər verir. Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı həmin ərazilərin bərpası və yenidən qurulması ilə bağlı yeni müasir konseptual yanaşmaları da özündə ehtiva edir. Hazırda respublikamızın quruda 27 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində isə 157 qiqavat külək enerjisi potensialı mövcuddur. Eyni zamanda işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialının həcmi 10 qiqavatdan çoxdur. Bu göstəricilər isə özlüyündə ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılmasına, elektrik ixracı potensialının yüksəldilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Dövlətimizin "yaşıl enerji" sahəsində həyata keçirdiyi layihələrin əsas məqsədlərindən biri də Azərbaycanda elektrik enerjisi istehsalına sərf olunan təbii qaza qənaət olunması və Avropaya ixracın həcminin artırılmasıdır.

Dövlət başçısının Sərəncamı ilə 2024-cü il ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Hazırda "yaşıl iqtisadiyyat"a keçid və ölkəmizi "yaşıl enerji" təchizatçısına çevirmək Azərbaycanın iqtisadi siyasətinin prioritetidir. Bununla yanaşı, Azərbaycanın neft-qaz şirkəti "SOCAR-ın Dubaydakı COP28 tədbirində metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizdə iqlim problemlərinin daim diqqət mərkəzində saxladığını söyləməyə əsas verir. Yeri gəlmişkən, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi müəyyənləşdirib. 2022-2026-cı illər üzrə tədbirlər planında bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi planlaşdırılıb.

Azərbaycan bu gün alternativ enerji resurslarına görə planetin ən zəngin ölkələrindən biri hesab olunur. Ölkəmizin müxtəlif bölgələri, eləcə də Bakı və Abşeron ərazisi həm külək, həm də günəş enerjisi üçün çox əlverişli imkanlara malikdir. Məsələn, Qobustandakı Günəş enerjisi stansiyasının indiyə qədərki göstəricilərinə nəzər yetirsək, burada həqiqətən çox geniş imkanlar olduğunu və bundan istifadənin ətraf mühit problemlərinin həllinə töhfə verəcəyini demək olar. Ölkəmiz uzun illər ərzində neft və qaz ehtiyatlarının ixracından əldə etdiyi gəlirləri səmərəli istifadə etməklə öz iqtisadiyyatını inkişaf etdirib və iqtisadi müstəqillik qazanıb. İndi isə bu ehtiyatlar hesabına dövlətimiz qlobal səviyyədə iqlim dəyişmələri ilə mübarizəyə töhfə verməklə öz mövqeyini daha da möhkəmləndirə və təsir dairəsini genişləndirə bilər. Həmçinin COP29-un Bakıda keçirilməsi Azərbaycanda özəl sektorun bu prosesə cəlb edilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.



Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində respublikamız yüksək sosial, iqtisadi inkişaf və möhkəm ictimai siyasi sabitliyə nail olub. İkinci Qarabağ savaşında əldə etdiyimiz zəfər Azərbaycanın dünyada daha güclü dövlət kimi tanınmasına mühüm töhfə verib. Ümumiyyətlə, rəsmi Bakı son dövrlərdə böyük uğurlara imza atır. Ölkəmizin BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik etməsi qlobal arenadakı nüfuzumuzu daha da artırıb. Bütün bunlar Azərbaycanın beynəlxalq səviyyəli tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirdiyini bir daha təsdiqləyir.

Məlum olduğu kimi, Azərbaycan yüksək inkişaf göstəricilərinə malik ölkədir. COP29 kimi mötəbər tədbirləri təşkil etmək üçün təhlükəsizlik baxımından "sabitlik adası" statusumuz bütün dünya ictimaiyyətinin marağını cəlb edir. Bu baxımdan, ölkəmizin 2024-cü ildə dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibi olaraq seçilməsi Azərbaycan Prezidentinin növbəti qələbəsidir. COP29-un Bakıda keçirilməsi, həmçinin ölkəmizin böyük nüfuzunun, müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycana olan marağının təzahürüdür. Sözügedən məsələ barədə mütəxəssislər və iştirakçıların düşüncələri və mövqeyi də vahiddir. Azərbaycan həmin məsələ ilə əlaqədar bir sıra layihələr həyata keçirib və bundan sonra da alternativ enerjiyə keçidlə bağlı işlərin icrası davam etdiriləcək.

Azərbaycanın mövcud şəraitdə beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrildiyini nəzərə alsaq, ölkəmizin necə müsbət imic qazandığını görmək mümkündür. Bu tədbir də Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya nümayiş etdirəcək. COP29 dövlətimizin nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2024.- 11 iyul (№ 143).- S.7.